**Qələmdaşları arasında adı daim hörmətlə çəkilən həmkarımız Nəzakət Məmmədova Bakıda anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya fakültəsini bitirib. Bəlkə də, psixoloq olduğuna görədir ki, insanlarla asan dil tapır, ürəklərə nüfuz edir və ətrafında işıq dolu aura yarada bilir. Bir görüşlə yadda qalan ziyalılarımızdandır “Yada düşdü” adlı ədəbi-bədii, nostalji jurnalın təsisçisi Nəzakət Məmmədova.**

...Onda hələ uşaq idi. Əslən Ərdəbildən olan atası günorta saatlarında radioda Arazın o tayını tutub musiqiyə qulaq asar və göz yaşları axıdardı. “Görəsən, onu ağladan nədir?” – deyə düşünən balaca qız böyüyüncə anladı ki, Vətən həsrəti, yurd nisgili imiş atasının qəlbindəki sarı simi tərpədən. Sonra Nəzakət xanım babasının və atasının gedə bilmədikləri Ərdəbilə səfəri zamanı özü də



ortaya çökən pərtliyi Nəzakət xanım özünün “Şəhid atası” şeirini əzbərdən söyləməklə aradan qaldırdı. “Şəhidlər hamımızın balalarıdır”, – dedi. Gördüm, kişinin üzü gülür...

Nəzakət xanımın gözəl publisist və şair olduğu şəksizdir. Bütün yazıları səmimiyyət üzərində köklənib. Aramızda paralellər aparmaq istəyərkən aşkar elədim ki, hər ikimizin ilk kitabımız 46 yaşımızda işıq üzü görüb. Mənim “Ürəyimi döyən həvəs” kitabım 2003-cü ildə, onunsa “Ömrüm” kitabı 2008-ci ildə çıxıb. (Gərək bağışlasın: Nəzakət xanımın neçə yaşı olduğunu demək istəmirdim. Amma diqqətli oxucular adi hesablama ilə bunu öyrənəcəklər. Onsuz da ona o yaşı vermək olmaz).

Onun kitablarının adında “ömür” sözü, mənim kitablarımın adında isə “ürək” sözü dəfələrlə təkrarlanıb. Bəlkə də təsadüfdür, bəlkə də yox. Əsas odur ki, bu gün Nəzakət xanımın ömür kitabı haqqında mən ürəklə nəsə yazmaq istəyirəm. “Ömrün qatarı”,

# Baş redaktor – hərbçilər anası

göz yaşlarını saxlaya bilməyib.

İyirmi ildir ki, o, Respublika Xatirə Kitabı Redaksiyasının əməkdaşıdır. Hazırda baş redaktor vəzifəsində çalışır. Eyni zamanda “Kitab evi” İctimai Birliyinin icraçı direktorudur. Tanımayan bilməz ki, bu xanım-xatun ziyalı bu qədər məsul vəzifələr daşıyır və hamısının öhdəsindən bacarıqla gəlir.

Üç il əvvəl telekanalların birinin ortaq qonağı idik. Nəzakət xanım məndən xahiş etdi ki, “Yada düşdü” jurnalına bir yazı hazırlayım. Növbəti nömrədə “Ömrü söz uğrunda girov qoyan şair Məmməd Aslan” adlı oçerkimə səxavətlə yer verildi. Redaksiyada Nəzakət xanım və AzTV-də birgə çalışdığım digər həmkarım Kəmalə Mirzəyeva mənə həm jurnalı hədiyyə elədilər, həm də gözəl bir çay süfrəsi açdılar. Çoxdan görüşmədiyim şair Zülfüqar Şahsevənli də orada idi. Həmin yarım saatlıq görüşdən zəngin təəssüratla ayrıldım. Daha sonra jurnalın 10 illiyində sosial şəbəkədə ürəkdən gələn ən xoş sözlərimi yazdım. Budur, indi də “Xalq qəzeti”ndə yazmaq imkanı yaranıb.

“Yada düşdü” yaddan çıxmayan dövri nəşrdir. Ziraddin Qafarlı demişkən: “Yadımdan çıxdığın yadıma gəlmir”. Bu dərgi, hətta ən ucqar nöqtələrə gedib çıxa bilir. Bir dəfə ağsaqqal hərbi jurnalist dostumuz Şəmistan Nəzirli dedi ki, Xınalıqda belə “Yada düşdü”yə rast gəlmişəm. Jurnalın ilk baş redaktoru tanınmış mərhum yazıçımız Nahid Hacızadə olub. Nahid müəllim AzTV-də sədr müavini olan zaman mən də ədəbi-dram verilişləri redaksiyasında işləmişəm. Nəzakət xanımın fenomenal, ensiklopedik xatirə yaddaşı olan Nahid müəllimi bu jurnala baş redaktorluq etməyə razı salması onun unudulmazlara layiqli dəyər verə bilmək məramından irəli gəlmişdi. Həmin vaxt Nahid müəllim onun ürəyini qırmayıb, o da ustadına vəfa borcunu həmişə yüksək səviyyədə yerinə yetirir.

Bir neçə ay öncə Masallıda idim. Eşitdim ki, orada Nəzakət xanımgilin şəhidlərə həsr etdikləri “44 gün – tarixi zəfər” toplusunun ilk cildinin təqdimatı olacaq. Zəng edib hal-əhval tutdum, məni də tədbirə dəvət elədi. Amma gedə bilmədim. Sanki ürəyimdə bir xal qaldı. Xoşbəxtlikdən öyrəndim ki, eyni tədbir ertəsi gün Lənkəranda da olacaq. Sabahısı özümü ora yetirdim. Nəzakət xanım məni görən kimi aparıcıya işarə elədi və nəfəsimi dərməmiş çıxış etməli oldum. Heç fikirləşmədən duyğu və düşüncələrimi qatara düzdüm. Ürəyində əziz yeri olanlar haqqında danışmağa nə var ki!

Həmin görüşün bir məqamı isə Nəzakət xanımın həssas psixoloqluq məharətini göstərdi. Bir şəhid atası nədənsə giley-güzar edəndə

Türkiyədə çapdan çıxmış “Saralmış yarpağa bənzəyir ömrüm”, eləcə də yenicə işıq üzü görmüş “Yurd həsrəti” kitabları müəllifin bədii yradıcılıq hesabatlarıdır. Mətbuat səhifələrində bədii yazıları ilə tez-tez qarşılaşırıq. “Yurd dediyim bu torpaq” kitabına daxil etdiyi “Şəhid zirvəsi” poeması onu artıq çox ciddi bir imza kimi tanıdır. Onun şeirləri bir neçə dilə də tərcümə edilib. Tehranda baba yurdu haqqında “Ərdəbilim” adlı şeirlər toplusu nəşr olunub. Özünün haqqında isə Allahverdi Eminovun “Nəzakət Məmmədlinin yaradıcılıq yolu” və Hikmət Məlikzadənin “Nəzakət Məmmədovanın yaradıcılığında Vətən kodları” kitabları çap edilib.

Yeri gəlmişkən, Nəzakət xanımın “Yada düşdü”sü Cənubi Azərbaycanda nəşr olunan “Körpü”, “Xudafərin” dərgisi ilə qardaşlaşıb və qarşılıqlı olaraq yazıları nəşr edirlər, iki Azərbaycan arasında mənəvi körpü salırlar. Jurnalın Türkiyə və Rusiyada da təmsilçiləri var. İraq, Şimali Kıprıs Türk Cümhuriyyəti, Saray Bosna, Dağıstan, Qırğızıstan, Özbəkistan, Qazaxıstanla ədəbi əlaqələri mövcuddur.

Nəzakət Məmmədova artıq 6 ildir ki, Respublika Xatirə Kitabı Redaksiyasına rəhbərlik edir. “Xatirə Kitabı”nın 16 cildi çapdan çıxıb, hazırda 17-ci cildin tamamlama işləri gedir. “Şəhidlər ölməz, Vətən bölünməz” seriyasından 6 şəhid haqqında kitab nəşr olunub. Redaksiya hər il bir şəhid haqqında kitab hazırlamağı nəzərdə tutur. 2017-ci ildə Respublika Xatirə Kitabı Redaksiyası daha bir məsuliyyətli araşdırmaya başlayıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə, Ermənistanın Qarabağa və ətraf rayonlara hücumu və torpaqlarımızın işğalı zamanı əsir və girov götürülmüş, həmçinin naməlum şəraitdə itkin düşmüş hərbçi və mülki şəxslərin sonrakı talelərinin araşdırılması əsas prioritetdir. Nəzakət xanım Vətən müharibəsi şəhidləri haqqında ”Vətən daşı... və ya 44 günün dastanı” film layihəsinin də müəllifidir.

Vətənpərvərlik onun ən sevimli mövzusudur. Üç övladının hər biri zabit olaraq ön cəbhədə Vətənin keşiyində duran bir ana üçün bundan müqəddəs nə ola bilər?! Qızı hərbi həkimdir, oğlanlarının isə biri polkovnik-leytenant, digəri mayordur. Gəlinləri də zabitdir. Nəzakət xanım oğullarımızın vuruşub azad etdikləri Şuşaya da gedib, orada namaz qılıb və gözləri ilə öpdüyü kimi, dizləri ilə o müqəddəs torpağa toxunanda özünü dünyanın xoşbəxti sayıb.

*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*